**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 77

**Bakı şəhəri** “04” oktyabr 2010-cu il

**“Yenidoğulmuşların vahid tibbi elektron registrinin yaradılması barədə”**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyul 2010-cu il tarixli «Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası»na dəyişikliklər və əlavələr edilməsi barədə 134 nömrəli Qərarına uyğun olaraq Azərbaycan Respublikasında doğum hallarının qeydiyyatı sahəsində nəzarətin gücləndirilməsi və Azərbaycan Respublikası Səhiyyə Nazirliyində yenidoğulmuşların vahid tibbi elektron registrinin yaradılması məqsədilə

## ƏMR EDİRƏM:

1.Respublikada doğuşayardım xidməti göstərən bütün tibb müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, doğum evlərində (şöbələrində) yenidoğulmuşlar barədə məlumatlar “Vətəndaşların Elektron Sağlamlıq Kartı Sistemi”nə (VESKS) daxil edildikdən sonra həmin məlumatlar və yenidoğulmuşların unikal kodu göstərilməklə “AZS-103” nömrəli “Doğum haqqında tibbi şəhadətnamə”nin VESKS vasitəsilə 3 nüsxədə çap edilərək bir nüsxəsi həmin müəssisədə saxlanılmaqla, digər nüsxələrin Səhiyyə Nazirliyinin İnformatika və Statistika İdarəsinə və yenidoğulmuşun valideyninə çatdırılması təmin olunsun.

2. İnformatika və Statistika İdarəsinin rəisi O. Axundova və Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C. Əsəd-zadəyə tapşırılsın ki, "AZS-103" nömrəli "Doğum haqqında tibbi şəhadətnamə" 01 yanvar 2011-ci il tarixindən yalnız "Vətəndaşların Elektron Sağlamlıq Kartı Sistemin"dən çap olunmuş formada qəbul edilsin.

3. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru Cəbrayıl Əsəd-zadəyə tapşırılsın:

3.1. yenidoğulmuşlar barədə VESKS-də toplanan məlumatlar əsasında yenidoğulmuşların vahid tibbi elektron registri yaradılsın;

3.2. yenidoğulmuşların vahid tibbi elektron registrindən zəruri məlumatların operativ şəkildə aidiyyəti qurumların elektron informasiya sistemlərinə ötürülməsi təmin olunsun.

4. Əmrin icrasına nəzarət Nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**